Xalq Bank

ASC "Xalq" Bankının

Müşahidə Şurasının

08.04.2021-ci il tarixli

Qərarı ilə təsdiq edilmişdir

(Protokol № 36)

Müşahidə Şurasının sədri

_______________A.M.Məmmədli

# ASC "Xalq" Bankının
# 2021-2023-cü illər üzrə
# Strateji Baxışı və Missiya Bəyanatı

Bakı – 2021

2021-ci ildən başlayaraq yenilənmiş bazar şəraitinə, Bankın mövqeyinə, qazanılmış imicinə və fəaliyyətinin təşkilinin baza prinsiplərinə uyğun olaraq ASC "Xalq" Bankı öz Strateji Baxış və Missiya Bəyanatını aşağıdakı kimi müəyyən edir:

## STRATEJİ BAXIŞ

**Yüksək korporativ idarəetmə standartı tətbiq edən müştəri yönümlü universal və texnoloji bank olmaqla davamlı iqtisadi inkişafa töhfə vermək.**

## MİSSİYAMIZ

**Xalq Bankın missiyası yüksək idarəetmə standartları, fərdi yanaşma və rəqabətlilik, əlverişli məhsul və peşəkar xidmətləri ilə müştərilərin tərəfdaşına çevrilmək və dayanıqlı inkişafa nail olmaqdır.**

Yuxarıda qeyd olunan anlayışlar strateji hədəflərimizin müəyyən olunmasında xüsusi əhəmiyyət kəsb etməklə aşağıdakı mənaları ifadə edir:

*Yüksək korporativ idarəetmə standartı* - səhmdarların, əməkdaşların, müştərilərin, tərəfdaşların, dövlətin və cəmiyyətin maraqlarını ən yüksək səviyyədə balanslaşdıran, təmin edən idarəetmə prinsipləri və qaydalarının tətbiq olunması.

*Müştəri yönümlü* - müştəri istək və tələbatının bankın strateji hədəflərinin müəyyən olunmasında əsas isitqamətləndirici olması.

*Texnoloji baxış* - məhsul və xidmətlərin yaradılması zamanı bazarda mövcud texnoloji təkliflərin istiqamətləndirici kimi seçilməsi.

*Universal bank* - bütün müştəri seqmentləri üzrə geniş çeşidli məhsul və xidmətlərin təklif olunması.

*Fərdi yanaşma* - müştəri istək və tələbatına uyğun olaraq təklif edilən məhsul və xidmətlərin şərtlərinin uyğunlaşdırılması.

*Rəqabətlilik* - məhsul və xidmətləri bazardakı alternativlərdən fərqləndirən üstünlüklərinin olması.

*Əlverişli məhsul* - məhsul və xidmətlərin faydasının qiymətindən daha üstün olması.

*Peşəkar xidmət* - təcrübə, keyfiyyət, çeviklik, faydalılıq kimi xüsusiyyətləri özündə birləşdirən xidmət.

*Müştərilərin tərəfdaşına çevirilmək* - müştərilərin öz hədəflərinə çatmaq istiqamətində fəaliyyətləri zaman onların daimi dəstəkçisi olmaq.

*Dayanıqlı inkişaf* - stabil artım templi inkişaf.